**Azərbaycan Respublikası**
**Maliyyə Nazirliyinin**
*"24" yanvar 2014-cü il tarixli*
*Q-02 nömrəli Kollegiya Qərarı*
*ilə təsdiq edilmişdir.*

**İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün**

# ƏLAVƏ TƏLƏBLƏR

Bu Əlavə tələblər «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.1-ci yarımbəndinin icrası məqsədilə hazırlanmışdır və icbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün əlavə tələbləri müəyyən edir.

## 1. Ümumi müddəa

«İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun 4.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən müvafiq sığortaçıya həmin qanunda nəzərdə tutulmuş hər hansı icbari sığorta növünün aparılmasına icazə verilməsi üçün həmin sığortaçı qeyd olunan qanunun 27.2-ci maddəsində müəyyən edilmiş tələblərə cavab verməklə yanaşı bu Əlavə tələblərdə nəzərdə tutulanlara da riayət etməlidir.

## 2. İqtisadi rayonlardakı bölmələrin mövcudluğu ilə bağlı tələb

2.1. Sığortaçıya hər hansı icbari sığorta növünün aparılmasına icazə verilməsi üçün o, işğal olunmuş ərazilər istisna olmaqla, Azərbaycan Respublikasının aşağıdakı hər bir iqtisadi rayonuna daxil olan rayon və (və ya) şəhərlərdən ən azı birində zərərlərin tənzimlənməsi üçün lazımi imkanları olan filial və ya nümayəndəliyə malik olmalıdır.

2.1.1. **Abşeron iqtisadi rayonu** (Abşeron və Xızı rayonları, Sumqayıt şəhəri).

2.1.2. **Aran iqtisadi rayonu** (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir və Yevlax şəhərləri).

2.1.3. **Dağlıq Şirvan iqtisadi rayonu** (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları).

2.1.4. **Gəncə-Qazax iqtisadi rayonu** (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri).

2.1.5. **Quba-Xaçmaz iqtisadi rayonu** (Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları).

2.1.6. **Lənkəran iqtisadi rayonu** (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları).

2.1.7. **Naxçıvan iqtisadi rayonu** (Babək, Culfa, Ordubad, Sədərək, Kəngərli, Şahbuz, Şərur rayonları, Naxçıvan şəhəri).

2.1.8. **Kəlbəcər-Laçın iqtisadi rayonu** (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları)

2.1.9. **Şəki-Zaqatala iqtisadi rayonu** (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları).

2.1.10. **Yuxarı Qarabağ iqtisadi rayonu** (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri).

## 3. İqtisadi rayonlardakı bölmələr barədə məlumatlandırma

Sığortaçı bu Əlavə tələblərin 2-ci bəndində nəzərdə tutulmuş filial və ya nümayəndəliklər, o cümlədən onların yerləşdiyi ünvan və telefon nömrələri barədə məlumatların özünün rəsmi internet səhifəsində mövcudluğunu təmin etməlidir.

## 3-1. Elektron informasiya sistemi ilə bağlı tələb

Sığortaçıya "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hər hansı icbari sığorta növünün aparılmasına icazə verilməsi üçün onun elektron informasiya sistemi İcbari Sığorta Bürosunun informasiya sisteminə veb servis vasitəsilə qoşulmaq imkanına malik olmalıdır.

## 4. Əlavə tələblərin qüvvəyə minməsi

4.1. Bu Əlavə tələblər 2012-ci ilin 01 iyul tarixindən qüvvəyə minir.

4.2. Bu Əlavə tələblərin 3–1-ci hissəsi 2012-ci ilin 01 sentyabr tarixindən qüvvəyə minir.